## PRESS-RELİZ

## Elmin İnkişafı Fondunda 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş anım tədbiri keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunda 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş anım tədbiri keçirilib. Tədbir soyqırım qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Fondun icraçı direktoru Elçin Babayev 1918-ci il 31 mart hadisələrindən, son 200 ildə erməni daşnaklarının azərbaycanlılara qarşı həyata keçirdiyi məqsədyönlü soyqırımı siyasətindən, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanından, Prezident İlham Əliyevin "hücum diplomatiyası"ndan, azərbaycanlılara qarşı törədilən soyqırımlar haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən böyük işlərdən, müxtəlif dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və Heydər Əliyev Fondunun fəaliyyətindən söz açıb.

Qeyd edilib ki, 31 mart – bir tarix dərsidir və bu dərsi hər bir azərbaycanlı yaxşı öyrənməli və heç vaxt unutmamalıdır.

Tədbirin sonunda 31 Mart soyqırım hadisələrinə həsr edilmiş material nümayiş etdirilib.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**